# Bəşəriyyətə qarşı törədilmiş ağır cinayət



Tarixboyu xalqımız müxtəlif faciələrlə üzləşib. Xocalı soyqırımı isə xalqımıza qarşı çox amansızlığı və qəddarlığı ilə seçilən cinayətdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələrinin törətdiyi bu dəhşətli müharibə cinayəti zamanı keçmiş sovet ordusunun 366-cı alayının iştirakı ilə dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədilmişdir.

İşğal nəticəsində Xocalı şəhəri tamamilə xarabalığa çevrilmişdir. Burada 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, 3 mədəniyyət evi və 1 tarix-diyarşünaslıq muzeyi erməni vandalları tərəfindən məhv edilmişdir. XIV-XV əsrlərə aid türbələr, günbəzlər və qəbiristanlıqlar Yer üzündən silinmişdir.

İndiyədək Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu günədək Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan və digər ölkələrin qanunverici orqanları, həmçinin ABŞ-nin 20-dən çox ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə aparılan işlərin miqyasını daha da genişləndirmişdir. Kampaniya çərçivəsində 100 minlərlə insan və 115 təşkilatın dəstəyi ilə dünya ictimaiyyətinin diqqəti bu faciəyə yönəldilmiş, soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

2020-ci il Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 30 illik işğala son qoyaraq Xocalı şəhidlərinin də qisasını almışdır. 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Xocalı şəhəri separatçılardan tam təmizlənmiş, 2023-cü il oktyabrın 15-də şəhərdə Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılmışdır. Bu tarixi hadisələr Xocalı şəhidlərinin ruhuna ən böyük töhfə olmaqla yanaşı, Azərbaycan dövlətinin gücünü və qətiyyətini bütün dünyaya nümayiş etdirmişdir.

Son dövrdə Xocalının dirçəldilməsi istiqamətində mühüm addımlar atılmaqdadır. 2024-cü il fevralın 26-da Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdur. Prezidentin 2024-cü il 1 aprel tarixli fərmanı ilə "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılmışdır. 2024-cü il mayın 28-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərində 15 çoxmənzilli binada aparılan təmir və yenidənqurma işləri ilə tanış olmuş, şəhərə köçən sakinlərlə görüşmüşlər. İyulun 5-də Xocalı Hava Limanında, sentyabrın 19-da isə Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda aparılan işlərlə tanışlıq dövlət başçısının burada görülən işləri diqqət mərkəzində saxlamasının təsdiqidir. Bütün bu tədbirlər Xocalının yenidən dirçəldilməsi və əhalinin doğma yurdlarına qayıdışı istiqamətində atılan əhəmiyyətli addımlardır.

Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş ağır cinayətdir. Bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınması, ona hüquqi-siyasi qiymət verilməsi və cinayətkarların cəzalandırılması istiqamətində səylərimiz davam etdirilməlidir. Eyni zamanda Xocalı həqiqətlərinin gələcək nəsillərə çatdırılması və bu faciənin unudulmaması üçün hər birimiz üzərimizə düşən məsuliyyəti dərk etməliyik.

Azərbaycan xalqı Xocalı şəhidlərinin əziz xatirəsini daim yaşadacaq, tarixi ədalətin bərpası və günahkarların beynəlxalq səviyyədə cəzalandırılması istiqamətində mübarizəsini davam etdirəcəkdir.


***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***


Azərbaycan.- 2025.- 26 fevral (№ 43).- S.8.